

# Heydər Əliyev İli 2023

# Xalqımızın 30 il əvvəlki seçimi dövlətimizin qüdrətinin əsasını təşkil etdi

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının ən ağır günlərində hakimiyyətə gələrək ölkəmizin dağılmaq təhlükəsini aradan qaldırdı. Uzun illər davam edən hərc-mərclik, idarəedicilərin səriştəsizliyi nəticəsində dövlətimiz uçurumun tam kənarında idi. Xalq hakimiyyətdən ümidini üzmüş, hakimiyyətdəkilər isə öz mənafelərini ümummilli mənafelərdən üstün tutaraq öz ambisiyalarının əsirinə çevrilmişdilər.



İqtidardakıların cəmiyyəti deqradasiyaya uğratmaq üçün bütün gücləri səfərbər etdiyi bir zamanda Ermənistanın ölkəmizə təcavüzü artmış, yüz minlərlə həmvətənlimiz öz dədə-baba yurdlarını tərk etməyə məcbur olmuşdu. Hakimiyyət uğrunda gedən mübarizədə bir-birini əvəz edən səriştəsiz rəhbərlərin yarıtmaz siyasəti nəticəsində Azərbaycan tarixinin ən ağır günlərini yaşamaqda idi. Baş verən özbaşınalıqlar, xaotik ictimai-siyasi durum, Ermənistanın təcavüzü və digər ağır hadisələrin yaşandığı bir zaman kəsiyi ölkəmizi parçalanmanın astanasına gətirmişdi.

Cənubdan və şimaldan artan separatçılıq cəhdləri getdikcə kəskinləşir və qarşıdurmanı, parçalanmanı qaçılmaz edirdi. Hakimiyyətdəkilər isə baş verənləri, ümumiyyətlə, qiymətləndirə bilmir, hər addımda daha yanlış bir qərar qəbul edərək ölkənin süqutunu tezləşdirirdilər. Vəzirov, Mütəllibov rejimi, Xalq Cəbhəsi-Müsavat cütlüyü tərəfindən daxili və xarici düşmənlərlə yaradılmış birbaşa təmaslar cəmi 2 yaşı olan gənc dövlətin sonunu gətirirdi. Xalqın belə ağır günlər yaşadığı bir dövrdə Azərbaycanı özü qədər sevən Ümummilli Lider Heydər Əliyev xilaskar missiyanı öz üzərinə götürdü. Xalqımız onu hakimiyyətə dəvət etdi və növbəti dəfə Azərbaycanı ağır günlərdən qurtarmaq və inkişaf yoluna çıxarmaq missiyasını ona həvalə etdi. Vətənini hər şeydən çox sevən Heydər Əliyev xalqını bu ağır günlərdə yalnız buraxmadı, onun təkidli tələbini qəbul etdi. Azərbaycan xalqı da Ulu Öndərin hər zaman ideyalarına sahib çıxdı. 3 oktyabr 1993-cü ildə elan edilmiş prezident seçkilərində qədirbilən Azərbaycan xalqı Heydər Əliyevə etimad göstərərək böyük səs çoxluğu ilə onu prezident seçdi. Məhz 3 oktyabr tarixdə Azərbaycan xalqının iradəsinin ifadəsi olan seçkilərdə xalq həm öz liderini seçdi, həm də tarixin bu anında öz xilaskarını müəyyən etdi. Prezident seçkiləri nəticəsində dövlətimizin süqutunun qarşısı alındı və seçkilərdən 7 gün sonra Azərbaycan xalqının qarşısında and içərək vəzifə səlahiyyətlərinin icrasına başlayan Ulu Öndərin bu addımı ilə ölkəmiz aydınlığa qədəm qoydu.

Ümummilli Lider Heydər Əliyev andiçmə mərasimindəki nitqində bildirdi ki: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm. "Ulu Öndər ömrünün sonuna qədər bu anda sadiq qalaraq, xalqının qarşısında götürmüş olduğu öhdəliyə dönmədən riayət etdi.

Bizim üçün olduqca vacib olan tarixi dönüş nöqtəsində Ümummilli Liderin ilk atdığı addımlardan biri ölkəmizdə ictimai-siyasi sabitliyin təmin edilməsi oldu. Məhz həmin an üçün gündəlikdəki ilk prioritet məsələ baş verən qarşıdurmaların, hakimiyyətdaxili mübarizənin qarşısını almaq idi. Məhz bütün faktorlar bu hadisələrdən asılı idi, Ermənistana öz təcavüzkar siyasətini də uğurla həyata keçirməsinə imkan verən də belə hadisələr idi. Məhz 1991-1993-cü illər arasında hakimiyyətdə olanların səriştəsizliyi torpaqlarımızın işğalı ilə bərabər, Xocalı soyqırımını, Şuşa və Laçın hadisələrini özü ilə bərabər gətirmişdi. Nəticə etibarı ilə isə xalq olaraq ən ağır günləri keçirməyə məcbur olmuşduq. 1993-cü ilin oktyabr ayında isə xalqın ümidləri yenidən dirçəldi və məhz andiçmə nitqindən sonra Ulu Öndər Heydər Əliyevin bütün sahələrdəki uğurlu islahatlarının şahidi olduq. İctimai-siyasi sabitliyi təmin etməklə bərabər, düşmənin işğalçı siyasətini dayandırıldı və nizami ordu yaradılması istiqamətində əməli addımlar atıldı. Sabitliyi təmin etmək məqsədilə ölkədə fəaliyyət göstərən müxtəlif silahlı qruplar zərərsizləşdirildi, günahkarlar cəzalandırılaraq ədalət bərpa edildi.

Hüquqi dövlətin yaradılması uğrunda gərgin iş aparan Ulu Öndər yeni qanunların qəbul edilməsi təşəbbüsü ilə çıxış etdi. Ölkədə baş verə biləcək bütün cinayətlərin qarşısının alınması istiqamətində tapşırıqlar verərək, daxildə təhlükəsizliyi tam təmin etdi. Ümummilli Lider öz çıxışlarında dövlət üçün ən vacib əlamətlərdən biri olan ədalət fenomeninə toxunaraq bildirirdi ki, "Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə". Məhz bu sözlər məhkəmə-hüquq sahəsində aparılan islahatların əsas hərəkətverici qüvvəsinə çevrildi. Ölkədəki sabitlik bərqərar olunduqdan və düşmənin hücumu dayandırıldıqdan sonra ölkəmiz üçün prioritet olan növbəti vacib məsələ Azərbaycanın inkişafı idi. Bu məqsədlə də Ulu Öndər xarici bazara çıxışı asanlaşdırmaq, ölkəmizə investisiya cəlb etmək məqsədi ilə xarici dövlətlərlə işgüzar əlaqələr qurdu. İnvestorların ölkəmizə cəlb edilməsində əsas məqsəd vətəndaşların rifah halının yüksəldilməsi idi. Olduqca çətin dövrlərdən keçən ölkəmizə yüz minlərlə məcburi köçkünün evsiz qalması və müxtəlif problemlərin yeganə həllini yalnız sabitliyi təmin etməkdə və xalqın rifahını yüksəltməkdə görən Ulu Öndər bu istiqamətdə bütün addımları atırdı. "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmiz öz vacibliyini dünyaya nümayiş etdirdi, xarici investorlar və bu sahədə maraqlı olan dövlətlər Azərbaycanın yanında olmalarını açıq-aşkar şəkildə bəyan etdilər. Bununla da dahi lider xarici siyasət sahəsində qərbyönümlü diplomatiyanın əsasını qoydu. Bu siyasətin uğurlarını qısa zaman kəsiyində görməyə başladıq. Ulu Öndərin bütün beynəlxalq tribunallardan Ermənistan hakimiyyətinin təcavüzkar siyasəti, Azərbaycan torpaqlarının işğalı ilə bağlı verdiyi tam, hərtərəfli məlumatlar artıq xarici ölkələrin, beynəlxalq təşkilatların diqqətini çəkmişdir. Ermənistanın işğalını pisləyən və Azərbaycan ərazilərini tərk etməyi tələb edən müxtəlif bəyanatların və qətnamələrin əsasını xarici siyasətdəki qazanılan uğurlar təşkil edirdi. 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in növbəti zirvə toplantısı keçirildi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının baza formulu məhz bu görüşdə müəyyən edildi. Ermənistan istisna olmaqla, ATƏT-in üzvü olan 53 Avropa ölkəsi Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi.

Məhz belə taleyüklü məsələlərin həllində Azərbaycan gəncliyinin rolunu unutmayan Ulu Öndər tez-tez onlarla görüşür, gəncləri ictimai-siyasi həyatda fəal iştiraka dəvət edirdi. Ulu Öndər gənclər siyasətinin əsasını qoyaraq, onların elm, bilik əldə etmələrinin vacibliyindən bəhs edər, müxtəlif bacarıqların inkişafına dövlətimiz tərəfindən tam dəstək verilməsi üçün bütün addımları atardı. Dünyada ilk dövlətlərdən biri olaraq Azərbaycan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 2 fevral 1996-cı ildə Gənclər Forumu keçirdi. Gənclərimizə həsr edilmiş bu forumda həm də Azərbaycan gənclər siyasətinin əsas cizgiləri müəyyən edildi.

Ulu Öndər çıxışında "Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır" deyərək, gənclərimizin milli-mənəvi dəyərlərimizə bağlı olaraq yetişməsindən və gənclərimizin dövlətə verdiyi böyük dəstəkdən söz açdı. Daha sonra Gənclər Gününün təsis edilməsi ölkəmizdə gənclər siyasətinə verilən yüksək dəstəyin nümunəsi oldu.

Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyaları altında yetişmiş Azərbaycan gəncliyi də öz növbəsində üzərinə düşən tarixi missiyanın öhdəsindən Vətən müharibəsində ləyaqətlə gəldi. Onlar Prezidentin, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun tərkibində ön cəbhədə döyüşdülər, eləcə də informasiya müharibəsində gərgin əmək sərf etdilər. Nəticədə tarixi Azərbaycan torpaqları düşmən işğalından azad edilərək, suverenliyimiz bərqərar edildi. Bu gün üçrəngli Azərbaycan bayrağı Vətən göylərində böyük məğrurluqla dalğalanır.

Azərbaycan öz ərazi bütövlüyünü bərpa, suverenliyini bərqərar və 30 ilə yaxın müddətdə işğalda qalmış torpaqlarını düşməndən azad etmiş qalib dövlətdir. Ölkəmiz qüdrətini nümayiş etdirərək, yalnız regionun deyil, eləcə də dünyanın ən güclü dövlətlərindən biri olmasını təsdiq etdi.

Məhz Ulu Öndərin görmək istədiyi qüdrətli Azərbaycan bugünküdür.

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini***